*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 iyul 2015-ci il № 57 (1973) Qiyməti 25 qəpik


## BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi ilə bağlı Təşkilat Komitəsi yaradılıb

İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı il aprelin 25-27-də Bakı şəhərində keçirilməsi ilə bağlı Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzalayıb.

AZƏRTAC xəbər verir ki, Sərəncamda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda yüksək səviyyədə təşkilinin Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun daha da artırılması, Azərbaycan xalqının tarixi-mədəni irsinin geniş miqyasda tanıdılması baxımından əhəmiyyəti qeyd edilir. Xatırlanır ki, 2014-cü il sentyabrın 26-da BMT Baş Assambleyasının 69-cu sessiyası çərçivəsində təşkilatın Sivilizasiyalar Alyansı Dostlar Qrupunun Nazirlər Toplantısında Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Azərbaycanın paytaxtında keçirilməsi barədə qərar qəbul edilib.

Sərəncamda vurğulanır ki, tolerantlığın məkanı, multikultural ənənələrə sadiq müstəqil Azərbaycan mədəniyyətlərin dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanması və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir.

Sərəncama əsasən, Təşkilat Komitəsi BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi ilə bağlı zəruri məsələləri, Nazirlər Kabineti isə bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## TÜRKPA-nın baş katibi ATƏT-in Daimi Şurasında çıxış edib

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRKPA) baş katibi Jandos Asanov ATƏT-in Daimi Şurasının Vyanada keçirilən iclasında iştirak edib.

TÜRKPA-dan AZƏRTAC-a bildiriblər ki, Jandos Asanov Daimi Şurada çıxış edərək qurumun fəaliyyəti, gələcək vəzifə və məqsədləri haqqında məlumat verib, ATƏT və onun qurumları ilə dialoqları davam etdirmək niyyətində olduqlarını vurğulayıb. Baş katib, həmçinin qeyd edib ki, türk əməkdaşlığının parlament ölçüsü olaraq, Assambleya ATƏT ilə üzv ölkələrdə sabit və davamlı inkişafın təmin edilməsinə yönəlmiş eyni məqsəd və prinsipləri bölüşür.

Baş katib çıxışında TÜRKPA-nın Bakıda keçirilən birinci Avropa Oyunlarına göstərdiyi mənəvi dəstəkdən də danışıb. Bildirib ki, bu, Avropa idman icmaları arasında dostluq və qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsinə dəstək verən dünya miqyaslı möhtəşəm idman hadisəsi idi. Yeni inşa edilmiş idman məkanlarında keçirilən Oyunlar 6 mindən çox avropalı atleti bir araya gətirdi. Qonaqlar, həmçinin ev sahibi Azərbaycanın zəngin mədəni və tarixi irsinə nəzər yetirmək imkanı da əldə etdilər. "Çox sevindirici haldır ki, qısa zaman kəsiyində TÜRKPA-nın qurucu üzvlərindən və ATƏT-in fəal iştirakçı dövlətlərindən biri belə böyük və nəcib vəzifənin öhdəsindən gələ bildi", - deyə Jandos Asanov vurğulayıb.

## Azərbaycanlı deputat Bayburtda Ermənistanın işğalçılıq siyasətindən danışıb

Milli Məclisin deputatı Qənirə Paşayeva Bayburt Ticarət və Sənaye Odasında çıxışı zamanı Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə yüksək səviyyəli əlaqələrin olduğunu və bu əməkdaşlığın getdikcə daha da inkişaf etdiyini bildirib.

Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında həyata keçirdiyi etnik təmizləmə siyasətindən danışan Q.Paşayeva Dağlıq Qarabağ probleminin və qondarma "erməni soyqırımı"na qarşı mübarizənin bütün türk dünyasının ortaq məsələsi olduğunu deyib. O təəssüflə bildirib ki, dünyanın bəzi ölkələri həqiqətləri görmək istəmir və qondarma "erməni soyqırımı" ilə bağlı qərarlar qəbul edirlər.

Bayburt Ticarət və Sənaye Palatası Odasının başçısı İbrahim Yumak iki qardaş ölkənin bölgələri arasında əlaqələrin daha da genişləndirilməsinin önəmini vurğulayıb. Bildirib ki, Bayburt şəhərinin də Azərbaycanın bölgələrindən biri ilə qardaşlaşması çox vacibdir.

Bayburt Ticarət və Sənaye Odasının rəhbəri və üzvləri yaxın zamanlarda Azərbaycanda keçiriləcək "Qarabağdan Anadoluya könül körpüsü: Bayburt gecəsinə" tədbirinə dəvət olunublar. Eyni zamanda, onlara Azərbaycan tarixi və mədəniyyətini, Dağlıq Qarabağ həqiqətlərini əks etdirən materiallar və Q.Paşayevanın müəllifi olduğu kitablar təqdim edilib.

Görüşdə iştirak edən əslən bayburtlu olan "SOCAR Türkiyə"nin rəhbəri Kenan Yavuz, mədəniyyət və ədəbiyyat xadimlərimiz də Azərbaycan-Türkiyə münasibətlərinin perspektivləri ilə bağlı fikirlərini bölüşüblər.

**AZƏRTAC**

# Hava Hücumundan Müdafiə Qoşunlarının döyüş hazırlığı yoxlanılıb



***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən Hava Hücumundan Müdafiə Qoşunlarının qüvvə və vasitələri qəfil həyəcan siqnalı ilə döyüş hazırlığı vəziyyətinə gətirilərək onların döyüşə hazırlığı yoxlanılıb.***

Təlim-döyüş tapşırığının yerinə yetirilməsi düşmənin təyyarə, helikopter, PUA, o cümlədən onun silahlanmasında olan və perspektivdə ola biləcək ballistik və qanadlı raketlərinin məhv edilməsi üçün nəzərdə tutulan "Buk-MB" tipli zenit-raket komplekslərinin müxtəlif rejimlərdə istifadəsinin yoxlanılması ilə həyata keçirilib.

Tapşırığın yerinə yetirilməsi zamanı şərti düşmənin hava hədəfləri imitatorları aşkarlanaraq izlənməyə götürülüb və praktik raket atışları ilə dərhal məhv edilib.

Qarşıya qoyulan vəzifə və tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib, şəxsi heyətin döyüş hazırlığı, bacarığı və qarşılıqlı fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Vətəni qorumaqdan qürur duyuram

***Azərbaycan xalqı əsrlər, minilliklər boyu azadlığı və dövlətçiliyi uğrunda mübarizə aparıb, strateji-coğrafi mövqeyinə, əlverişli təbiətinə görə tarix boyu yadelli işğalçıların diqqət mərkəzində olub. Nəhayət, Azərbaycan Respublikası yarandı. Dünya miqyasında tanındı. Hər birimiz bilirik ki, ordumuz inkişaf edir. Müasir silah və hərbi texnika ilə təchiz edilmiş, yüksək döyüş hazırlığına malik ordumuz var. İqtisadiyyatımızda əldə olunan nailiyyətlər ordumuzun təchizatının yaxşılaşdırılmasına gətirib çıxarır.***

Mənim kimi minlərlə gənc hərbi qulluqçu ordu sıralarında xidmət edərək Vətəninin keşiyində durmaqdan qürur duyur. Vətəni qorumaq, onu sevənlərin borcudur. Əbəs yerə ana ilə Vətəni bir sırada tutmurlar. Vətəni sevmək ən ülvi hissdir.

Torpaqlarımız ermənilərin işğalı altındadı. Bu bizim qaysaqlamayan yaramızdı. Bu gün cəbhə bölgəsində xidmət etdiyimə, Vətənin müdafiəsində payım olduğuna görə sevindiyim qədər, işğalda olan torpaqlarımızın azad olunmasında da payım olmasını arzulayıram. Tezliklə Ali Baş Komandanın torpaqlarımızı azad etmək üçün əmr verəcəyinə inanıram.

Bu gün döyüşçü yoldaşlarımla cəbhə xəttində düşmənlə üz-üzəyik. Üzərimizə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlməyə çalışırıq. Əsgərlərimizin mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Onlar istənilən an erməni qəsbkarlarını torpaqlarımızdan qovub çıxarmağa hazırdırlar. Ordumuzla fəxr edirik, öyünürük...

**Leytenant**
**Elşad SOLTANOV,**
**"N" hərbi hissəsi**

## Andıma sadiq qalacam

***Vətənə əsgər olacağım günü həmişə intizarla gözlədiyimdən xidmətə çağırılanda sevincimin həddi-hüdudu yox idi. Mən də hərbi xidmətə gedirdim. Hərbi hissədə bizi böyük hörmət və ehtiramla qarşıladılar. Ertəsi gün gənc əsgərlərə hərbi forma verdilər. Əsgər formasını əynimə böyük sevinc hissi ilə geyindim. Həmin günü ömrüm boyu unutmayacam.***

İlk olaraq təcrübəli zabitlər bizə sıra hazırlığı məşğələsi keçdilər. Qısa müddət ərzində sırada düzgün addımlamağı öyrəndik. Gündən-günə ayaqlarımız möhkəmləndi, daha inamla addımlamağa başladıq. Hərbi bilikləri böyük həvəslə mənimsəyirdim. Bilirdim ki, xidmətdə uğur qazanmağın ən yaxşı yolu döyüş vərdişlərinə və hərbi biliklərə yiyələnməkdir. Məşğələlərdə fəallıqla iştirak edərək silahların və hərbi texnikanın sirlərini öyrəndim.

İlk günlərdən başlayaraq komandirlərimiz gənc əsgərlərə böyük etimad göstərirdilər. Biz də nümunəvi xidmətimizlə bu etimadı doğrultmağa çalışırdıq. Göstərdiyimiz cəhdlər, çəkdiyimiz zəhmət öz bəhrəsini verdi. Təlimlərdə yaxşı nəticələr göstərərək komandirlərin etimadını doğrultduq. Xidmətimin xeyli hissəsi artıq arxada qalıb. Bu müddət ərzində hərbi bilikləri və döyüş vərdişlərini mən də dərindən mənimsəmişəm. Bir vaxtlar təcrübəli zabitlərdən öyrəndiyim hərbi bilikləri indi böyük həvəslə gənc əsgərlərlə öyrədirəm. Xidmətimin sonuna qədər hərbi anda sadiq qalacam, əsgər kimi üzərimə düşən tapşırıqların öhdəsindən bacarıqla gələcəm.

**Əsgər**
**Vüsal ƏHMƏDOV,**
**"N" hərbi hissəsi**

## Düşmən təxribatlarının qarşısı qətiyyətlə alınıb

Ermənistan Silahlı Qüvvələrinin bölmələri iyulun 24-ü gün ərzində və gecə vaxtı cəbhənin Goranboy, Tərtər, Ağdam, Füzuli rayonları istiqamətində, o cümlədən Ermənistan-Azərbaycan dövlət sərhəddinin Gədəbəy rayonu sahəsində mövqelərimizi müxtəlif silahlardan intensiv atəşə tutmaqla aktiv təxribat fəaliyyətləri keçirməyə cəhd göstəriblər.

Bütün hallarda düşmənə atəşlə zərər vurulmaqla o susdurulub, hərəkət cəhdlərinin qarşısı qətiyyətlə alınıb və ən azı 5 nəfər itki verməklə geri çəkilməyə məcbur edilib.

Düşmənin qarşısı alınarkən Silahlı Qüvvələrimizin hərbi qulluqçusu müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Fətəliyev Eldar Səxavət oğlu şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına və əzizlərinə dərin hüznlə başsağlığı verir və səbr diləyir.

Müdafiə Nazirliyi bildirir ki, cəbhə xəttində əməliyyat şəraiti Azərbaycan Silahlı Qüvvələrinin tam nəzarəti altındadır, hərbi qulluqçuların döyüş ruhu və mənəvi-psixoloji durumu yüksəkdir.

## 40 hərbi qulluqçumuzun mühasirəyə düşməsi, 8 hərbçimizin yaralanması barədə məlumat yalan və təxribatdır

Bəzi elektron kütləvi informasiya vasitələri guya 40 nəfər hərbi qulluqçumuzun mühasirəyə düşməsi, bir neçə saatlıq atışmadan sonra mühasirədən çıxmağa nail olması və 8 nəfər hərbçimizin yaralanması barədə yalan və təxribat xarakterli məlumatlar yayıblar.

Ermənistanın xüsusi xidmət orqanları, o cümlədən xakerləri tərəfindən məqsədyönlü surətdə yayılan bu xəbərlər həqiqətə uyğun deyil və təəssüflər olsun ki, bəzi yerli elektron kütləvi informasiya vasitələri də düşmən yalanına uyaraq ictimaiyyətimizə yanlış məlumatlar çatdırır.

Növbəti dəfə bildiririk ki, cəbhədə baş verən hər bir hadisə ilə bağlı məlumatların yayılmadan əvvəl rəsmi surətdə Müdafiə Nazirliyi ilə dəqiqləşdirilməsi zəruri və vacibdir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə naziri Hərbi Dəniz Qüvvələrinin döyüşə hazırlıq səviyyəsini yoxlayıb

***Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin məlumatına əsasən iyulun 24-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Dəniz Qüvvələrinin yeni bazasında hərbi gəmilərin və şəxsi heyətin döyüşə hazırlıq səviyyəsini yoxlayıb.***





Hərbi gəmilərin daimi yerləşmə məntəqəsinə gələn Müdafiə naziri və Nazirliyin rəhbərliyi ümummilli lider Heydər Əliyevin hərbi hissənin qərargahı qarşısında ucaldılmış abidəsinin önünə gül dəstəsi qoyaraq, ehtiramlarını ifadə ediblər.

Komanda məntəqəsinə gələn Müdafiə nazirinə Hərbi Dəniz Qüvvələri komandanı vəzifələrini icra edən 1-ci dərəcəli kapitan Şahin Məmmədov gəmilərin ümumi hazırlığı, Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda əməliyyat şəraiti, Hərbi Dəniz Qüvvələrinin idarə olunmasının həyata keçirilməsi barədə operativ məlumatları məruzə edib.

Müdafiə naziri ən müasir texnologiyalara əsaslanan avadanlıqlarla təmin edilmiş komanda məntəqəsində məlumatların toplanması, təhlili və müvafiq qərar qəbul edilməsi ilə əlaqədar fəaliyyət göstərən dəniz qüvvələrinin komanda heyətilə görüşüb.

Sonra nazir hərbi gəmilərə baxış keçirərək onların taktiki-texniki xüsusiyyətləri, silahlanması, düşmənə qarşı mübarizə vasitələrinin vəziyyəti ilə maraqlanıb. Müdafiə nazirinə komanda məntəqələri, təhlükəsizlik, qəza-xilasetmə, maddi-texniki təminat bölmələri, o cümlədən gəmi heyətinin yerləşməsinin, qidalanmasının təşkili, vaxta xidmətinin aparılması, həmçinin həyati vacib digər qurğular barədə ətraflı məlumat verilib.

Müdafiə naziri cari ilin avqust ayının 1-dən 15-dək Rusiya Federasiyasının Mahaçqala şəhərinin limanı yaxınlığında keçirilməsi planlaşdırılan "Xəzər Dənizi - 2015" beynəlxalq müsabiqədə iştirak etməsi nəzərdə tutulan 2 ədəd gözətçi və 1 ədəd xilasedici yedək gəmisində olub. Nazir gəmilərin və heyətin səfərə hazırlığını yoxlayıb, onlara yarışlarda Azərbaycan xalqını, dövlətini, Silahlı Qüvvələri yüksək səviyyədə təmsil edərək uğurlu nəticələr və qələbələr əldə etmələrini arzulayıb.

Döyüş gəmilərinin ümumi vəziyyətini və şəxsi heyətin hazırlığını müsbət qiymətləndirən Müdafiə naziri bütün bu nailiyyətlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqəti və qayğısı sayəsində əldə edildiyini xüsusi qeyd edib.

Müdafiə naziri Hərbi Dəniz Qüvvələrinin döyüş hazırlığının daha da artırılması, silahlanmada olan döyüş vasitələrinin yenilənməsi, keyfiyyətinin və gücünün artırılması, o cümlədən gəmi heyətinin sosial-məişət şəraitinin yüksəldilməsi barədə müvafiq göstəriş və tapşırıqlarını verib.







# Müdafiə naziri Fransanın Azərbaycandakı səfiri ilə görüşüb



***İyulun 28-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Paskal Mönye ilə görüşüb.***

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan tərəflər hərbi sahədə uğurla inkişaf edən əlaqələri müzakirə edib və bu istiqamətdə fəaliyyətlərin genişləndirilməsinin vacibliyini xüsusi vurğulayıblar.

Görüşdə iştirak edən Fransa Respublikası Silahlı Qüvvələrinin Azərbaycanda akkreditə olunmuş hərbi attaşesi polkovnik-leytenant Andre Evrar fəaliyyət müddətinin başa çatması ilə əlaqədar ölkəmizdəki xidməti dövründən və əməkdaşlıqdan məmnunluq ifadə edərək gələcəkdə də Azərbaycanın daim səmimi dostu olaraq qalacağını bildirib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Müdafiə naziri şəhidimizi medalla təltif edib

Silahlı Qüvvələrimizin şəhid olmuş müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Fətəliyev Eldar Səxavət oğlu Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə ölümündən sonra "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif edilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***28 iyul 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 və 82 mm. minaatanlardan, iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 131 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Gülüstan, Tərtər rayonunun Çiləbürt, Yarımca, Göyarx, Qızıloba, Çaylı, Ağdam rayonunun Şıxlar, Şuraabad, Sarıcalı, Cəvahirli, Yusifcanlı, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*Ön xətdən reportaj*

# "Vətənə xidmət şərəfli borcumdur"

***Haramı düzü bir anlıq adama nəhayətsiz çöllüyü xatırladır. Maşınla irəli "gəldikcə" sonuna gedib çatmırsan. Yayın istisi Haramı düzündə daha çox hiss olunur. Hərdən sərin meh əssə də təsiri azdı. Yaza, payıza baxanda indi bu yerlərdə yaşıllıq bir az azalıb.***

Ön xətdə torpaqlarımızın müdafiəsində dayanan zabit və əsgərlərin yanına getmək üçün qərargahdan günortaya yaxın çıxmışıq. Torpaq yollar bizi yenə də ağuşuna alıb. "Yola körpü salmaq", "vaxtı öldürmək" üçün yol yoldaşlarımla - Eldəniz Gözəlovla və Anar Binnətovla söhbət edirik. Hər ikisi zabitdi. Mayor Eldəniz Gözəlov "sükutun ilməsini qıraraq" deyir ki, şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Zabit və əsgərlərimiz torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanırlar. Erməni qəsbkarları atəşkəsi pozmağa cəhd göstərən kimi dəqiq atəşlərlə susdurulur. Düşmən hər addımda hiss edir ki, qarşısındakı səngərdə dayanan Azərbaycan zabitinin, Azərbaycan əsgərinin döyüş hazırlığı yüksək səviyyədədir. Dəqiq atəş zərbələri altında çox duruş gətirə bilməyən erməni qəsbkarları ağır itki verib geri çəkilirlər. Ön xətdə xidmət edən zabit və əsgərlərimizin qələbə əzmi Ali Baş Komandanın, Müdafiə nazirinin arzuladığı səviyyədədir. Onlar hər dəqiqə düşmən üzərinə atılmağa, torpaqlarımızı azad etməyə hazırdırlar. Ermənilər qələbəyə köklənmiş döyüşçülərimizin qarşısını almağa qadir deyillər. Əgər yenidən döyüşlər başlayarsa, erməni qəsbkarları məğlubiyyətə, məhvə düçar olacaqlar.

Mayor Anar Binnətov xeyli müddətdir ki, bu hərbi hissədə xidmət edir. Bir zabit kimi üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlir. Xidmətinə məsuliyyətlə və diqqətlə yanaşır.

...Mənzil başına - ön xətdə torpaqlarımızın keşiyində dayanan zabit və əsgərlərin yanına çatırıq. Bizi burada kapitan Anar Qlinçev qarşılayır. O bildirir ki, heç bir hadisə baş verməyib. Düşmən mövqelərini daim nəzarətdə saxlayırıq, onların hər addımını diqqətlə izləyirik. Əvvəlki illər erməni işğalçıları atəşkəsi tez-tez pozurdular. Son vaxtlar düşmən əsgərlərimizin dəqiq atəşlərindən qorxaraq əllərini belə tərpədə bilmirlər. Çünki bütün həmlə cəhdlərinin qarşısını qətiyyətlə alırıq, onları dəqiq zərbələrlə susdururuq. İşğalçıların fəallığı gündən-günə azalır. Hara çəkilsələr də, nə qədər gizlənsələr də qəsbkarlar heç vaxt hədəfimizdən yayına bilməyəcəklər.

Qısa tanışlıq və söhbətdən sonra səngərlərə yollanırıq. Dərin səngərlər təhlükəsizdir. Burada hərəkət etmək və atəş açmaq mümkündür. Səngərə çatan kimi döyüş növbəsi aparan əsgərlərlə söhbət edirik, xidmət yolları ilə tanış oluruq, ürək sözlərini dinləyirik.

İlk həmsöhbətim müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu əsgər Adil Tahirzadə Lənkəranda dünyaya göz açıb. Orta təhsilini başa vurduqdan sonra ordu sıralarına çağırılıb. Taleyinə Sərhəd Qoşunlarında xidmət etmək düşüb. Əsgəri vəzifəsini şərəflə yerinə yetirərək sərhədlərimizi göz bəbəyi kimi qoruyub. Üzərinə düşən bütün tapşırıqların öhdəsindən bacarıqla gəlib. Xidmətini başa vurduqdan sonra valideynlərinin yanına alnıaçıq, başıuca qayıdıb. Hələ kiçik yaşlarından ordu həyatına, hərbçi peşəsinə böyük marağı olan Adil Tahirzadə bir neçə həftədən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi ön xətdə yerləşən bu hərbi hissədə xidmətə başlayıb. Həmin günlərdən xeyli müddət keçib.

- Vətənə xidmət etməyi ən şərəfli borcum hesab edirəm, - deyə əsgər Adil Tahirzadə sözə başlayır. - Bu gün biz hərbçilərin üzərinə böyük vəzifələr düşür. Ən başlıca vəzifəmiz erməni qəsbkarlarının tapdağı altında olan torpaqlarımızı azad etmək, doğma ocaqlarından didərgin düşmüş insanları dədə-baba yurdlarına qaytarmaqdır. Üzərimizə düşən bu və ya digər vəzifələri yerinə yetirmək üçün xidmətimizə böyük məsuliyyətlə yanaşırıq. Vətənin keşiyini çəkirik. Düşmənin təxribat törətmək cəhdlərinin qarşısını qətiyyətlə alırıq. Hər cəhdində ağır itki verən düşmən geri çəkilmək məcburiyyətində qalır.



- Hər qarış torpaq bizə əziz və doğmadır, - deyə əsgər Camal Piriyev söhbətimizə qoşulur. - Mən Yardımlı rayonunda dünyaya göz açmışam. Erməni qəsbkarları Qarabağa, həmçinin sərhəd kəndlərimizə hücum edəndə rayonumuzun vətənpərvər gəncləri silaha sarılaraq torpaqlarımızın müdafiəsinə atılıblar. Yurdumuzun azadlığı uğrunda cəsarətlə vuruşublar, böyük hünər və qəhrəmanlıqlar göstəriblər. Təəssüflər ki, qanlı döyüşlərdə itkilərimiz də olub. Neçə-neçə igid oğullarımız savaşlar zamanı şəhid olub. Bu gün biz əsgərlər sələflərimizin döyüş yollarını şərəflə davam etdirməyə hazırıq. Ürəyimiz qisas, intiqam hissi ilə döyünür. Döyüş hazırlığımız yüksək səviyyədədir. Əminəm ki, torpaqlarımızın azadlığı uğrunda yenidən savaş başlayarsa, torpaqlarımızı işğalçılardan təmizləyəcəyik. Sirlərini mükəmməl bildiyimiz silahlarımızla, cəsarət və hünərimizlə.

Daha sonra həmsöhbət olduğum əsgərlərdən Alməmdət Məmmədov, Əziz Musəvizadə, Elçin Məmmədov və başqaları da torpaqlarımızı göz bəbəkləri kimi qoruyacaqlarını bildirirlər.

Bizi səngərlərdən yola salan kapitan Anar Qlinçev "Xalqımız əmin olsun ki, biz hərbçilər torpaqlarımızı göz bəbəyi kimi qoruyuruq. Hər bir zabitin, hər bir əsgərin döyüş hazırlığı yüksək səviyyədədir. Yurdumuzu erməni işğalçılarından azad etməyə hər an hazırıq" - deyir.

Səngərlərdə torpaqlarımıza keşik çəkən zabit və əsgərlərə xidmətlərində uğurlar diləyib onlardan xoş təəssüratlarla ayrılırıq.

...Yenə da Haramı düzünün torpaq yollarıyla səngərlərə - torpaqlarımızın keşiyində dayanan zabit və əsgərlərin yanına gedirik. Yenə də bizi onlarla xoş ovqatlı görüşlər gözləyir. Yenə də... Yenə də...

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən dərs

**Suallar:**
**1. Hərbi əmlakı qorumaq hərbi qulluqçunun borcudur.**
**2. Əsgər və çavuşların dövlətə vurulan ziyana görə maddi məsuliyyəti.**
**3. Hərbi qulluqçuların dövlətə vurduqları maddi ziyana görə cinayət məsuliyyəti.**

**Mövzu:** Hərbi əmlakı qorumaq hərbi qulluqçunun borcudur. Əsgər və çavuşların dövlətə vurulan ziyana görə maddi məsuliyyəti.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Respublikasının Konstitusiyasından, Silahlı Qüvvələrin nizamnamələrindən, Azərbaycan Respublikası Cinayət Məcəlləsindən və "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında" Əsasnamədən istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

## Hərbi əmlakı qorumaq hərbi qulluqçunun borcudur.

Hərbi əmlak nədir? Hərbi əmlak dedikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, Sərhəd Qoşunlarının, Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq surətdə yaradılmış digər qoşun birləşmələrinin, hərbi hissə, müəssisə, hərbi məktəb, idarə və təşkilatların sərəncamında olan silahların, döyüş texnikasının və başqa texnikanın bütün növləri, döyüş sursatı, yanacaq, ərzaq, əşya, mühəndis, kimya vasitələri və evlər, digər maddi və pul vəsaitləri başa düşülür.

Ölkə rəhbərliyi Azərbaycan Ordusunun döyüş qüdrətinin yüksəldilməsi üçün ardıcıl iş aparır. Döyüş hazırlığı prosesinin keyfiyyətli və səmərəli təşkili üçün Silahlı Qüvvələrimiz lazımi maddi və texniki vəsaitlərlə təmin olunur. Ölkə rəhbərliyinin bu qayğısı sayəsində Silahlı Qüvvələrin hissələri öz döyüş hazırlığını artırır.

Ordu quruculuğunu daim öz nəzarəti altında saxlamış, müasir Azərbaycan dövlətçiliyinin və milli hərbi qüdrətimizin yaradıcısı Heydər Əliyev Silahlı Qüvvələrin inkişafı və maddi bazanın möhkəmləndirilməsi məqsədilə 2002-ci il avqust ayının 17-də "Silahlı Qüvvələrə yardım fondunun yaradılması haqqında" fərman imzalamışdır.

Bu gün Azərbaycan Silahlı Qüvvələrində olan döyüş texnikası və digər texnika, silahlar və sursatlar ordunun döyüş qabiliyyətini yüksək səviyyədə saxlamağa imkan verir. Ömrünü Azərbaycanın dövlət müstəqilliyinin və onun beynəlxalq nüfuzunun yüksəldilməsinə sərf etmiş ümummilli lider Heydər Əliyevin ölkəmizin müdafiə potensialı üzrə götürdüyü strateji xətti qətiyyətlə və uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev demişdir: "Ordu quruculuğunda da böyük addımlar atılacaqdır. Artıq bu istiqamətdə çox böyük dəyişikliklər mövcuddur və bu proses davam edəcəkdir. Azərbaycanın müdafiə potensialı güclənəcəkdir. Bu, bizim strateji xəttimizdir".

Hərbi xidmətə çağırılan hər bir vətəndaş xidməti vəzifələrini yerinə yetirmək üçün dövlət tərəfindən silah və texnika ilə, eləcə də öz şəxsi tələbatlarını ödəmək üçün müəyyən olunmuş normalarda ərzaq, əşya və pul təminatları ilə təmin olunur. Bu isə hərbi qulluqçudan ona həvalə olunmuş maddi vəsaitlərə qayğı ilə yanaşmağı, onları qorumağı və israfçılığa yol verməməyi tələb edir. Hərbi qulluqçuların maddi məsuliyyəti hərbi qanunvericilik aktları ilə müəyyən edilir. Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsində əsgərlərdən (matroslardan) tələb edilir:

- əsgər (matros) sülh və müharibə dövrlərində ona tapşırılan vəzifələrin və tapşırıqların vaxtında və dəqiq yerinə yetirilməsi ilə yanaşı, öz silahının, eləcə də ona həvalə olunan döyüş texnikası və digər texnikanın vəziyyətinə cavabdehdir;
- dövlət əmlakını qorumaq, geyimi və ayaqqabını səliqə ilə geymək, onları vaxtında təmir etmək, təmizləmək və göstərilmiş yerdə saxlamaq əsgərin (matrosun) vəzifə borcudur.

## Əsgər və çavuşların dövlətə vurulan ziyana görə maddi məsuliyyəti.

Azərbaycan Respublikasının 10.01.1995-ci il tarixli Qanunu ilə "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında" Əsasnamə təsdiq edilmişdir. 04.11.97-ci il və 19.08.98-ci il tarixlərdə həmin qanuna bir sıra dəyişikliklər və əlavələr edilmişdir.

Hərbi qulluqçular hərbi nizamnamələrlə, əmrlərlə və digər aktlarla nəzərdə tutulan vəzifə borclarını yerinə yetirərkən dövlətə vurduqları ziyana görə təqsirli olduqda bu Əsasnaməyə uyğun olaraq maddi məsuliyyət daşıyırlar.

Hərbi qulluqçular vəzifə borclarını yerinə yetirmədikləri zaman vurduqları ziyana görə ümummülki qaydada maddi məsuliyyət daşıyırlar.

Hərbi qulluqçular və toplanışa çağırılmış vəzifəlilər tərəfindən dövlətə vurulmuş ziyan, onların həmin ziyana səbəb olmuş hərəkətlərinə (hərəkətsizliyinə) görə intizam və yaxud cinayət məsuliyyətinə cəlb edilib-edilməməsindən asılı olmayaraq ödənilir.

Hərbi qulluqçular öz təqsirləri üzündən dövlətə vurduqları zərərin tam həcmi məbləğində maddi məsuliyyət daşıyırlar:

- hərbi əmlakın qəsdən məhv edilməsi, zədələnməsi, korlanması, oğurlanması, qanunsuz sərf edilməsi və ya cinayət məsuliyyətinə səbəb olub-olmamasından asılı olmayaraq qəsdən edilən başqa hərəkətlərlə zərər vurulduqda;
- naryad və başqa sənədlərlə faktiki görülməmiş işlər görülmüş işlər kimi göstərildikdə, hesabat rəqəmləri təhrif edildikdə və dövlət başqa şəkildə aldadıldıqda;
- zərər sərxoş vəziyyətdə olan şəxs tərəfindən vurulduqda;
- zərər cinayət məsuliyyətinə cəlb olunan şəxs tərəfindən vurulduqda.

## Hərbi qulluqçuların dövlətə vurduqları maddi ziyana görə cinayət məsuliyyəti.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin "Hərbi xidmət əleyhinə olan cinayətlər" bölməsində hərbi qulluqçuların dövlətə vurduqları maddi ziyana görə cinayət məsuliyyəti müəyyən edilmişdir:

**Maddə 347.**
Hərbi əmlakı itirmə.

Bu maddədə hərbi qulluqçulara xidməti istifadə üçün verilmiş silahın, döyüş sursatının, nəqliyyat vasitələrinin, texniki təchizat əşyalarının və ya sair hərbi əmlakın saxlanması qaydalarını pozma nəticəsində hərbi əmlakın itirilməsinə görə məsuliyyət nəzərdə tutulub. Belə əməllərə görə hərbi qulluqçu minimum əmək haqqının iki yüz mislinədək cərimə və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Maddə 348.**
Hərbi əmlakı ehtiyatsızlıqdan zədələmə, xarab etmə və ya məhv etmə.

Belə əməllər minimum əmək haqqının beş yüz mislinədək cərimə və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Eyni əməl müharibə vaxtı və ya döyüş şəraitində törədildikdə beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**Maddə 349.**
Hərbi əmlakı qəsdən məhv etmə və ya zədələmə.

Silahı, döyüş sursatını, hərbi texnikanı və ya sair əmlakı qəsdən məhv etmə və ya zədələmə, digər cinayətin əlamətləri olmadıqda minimum əmək haqqının beş yüz mislinədək miqdarda və ya iki ilədək müddətə hərbi xidmət üzrə məhdudlaşdırma və ya iki ilədək müddətə intizam xarakterli hərbi hissədə saxlama və ya dörd ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Bu əməllər təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə, ağır nəticələrə səbəb olduqda, müharibə və ya döyüş şəraitində törədildikdə üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Hər bir hərbi hissənin öz təyinatına görə müvafiq tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər texnika və silahlara, sursata malikdirlər. İctimai-siyasi hazırlıq sistemində öyrənilən bu mövzu hərbi qulluqçuları onlara həvalə olunmuş döyüş texnikasını, digər texnika və silahları, hərbi əmlakı qoruyub saxlamağa və ondan bacarıqla istifadə etməyə, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, ərazi bütövlüyünün bərpası və müstəqilliyimizin təmin olunmasında məsuliyyətlərini şüurlu dərk etməyə səfərbər etmək üçün planlaşdırılır və keçirilir.

Qrup rəhbəri mövzunu yekunlaşdırarkən dinləyicilərə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin aşağıdakı sözlərini bir daha xatırlatmalıdır: ***"Azərbaycan Ordusu güclü ordudur. Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".***

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

# Xəbərlər: hadisələr, faktlar

### Misirdə polisləri daşıyan avtobus partladılıb



Misirin Sina rayonunda polisləri daşıyan avtobus partladılıb. Polisləri daşıyan avtobusun keçdiyi yol üzərində yerləşdirilən bombanın partlaması nəticəsində 12 nəfər yaralanıb. Yaralı polisləri ətraf xəstəxanalara çatdırmaq üçün hadisə yerinə təcili tibbi yardım maşınları cəlb edilib, təhlükəsizlik qüvvələri tərəfindən ərazi nəzarətə götürülüb.

Bu ərəfədə Misir ordusu və polisi tərəfindən, rayonlarda, o cümlədən Sinada terrorçulara və təxribatçılara qarşı əməliyyatlara başlanılıb.

### Yəmənin paytaxtı yenidən atəşə məruz qalıb



Hərbi təyyarələr Yəmənin paytaxtının yaxınlığında yerləşən mövqelərə hava zərbələri endirib.

Şahidlərin sözlərinə görə, atışmalar şənbə günü axşam kəsilib və bazar günü səhər bərpa edilib. Hava zərbələri əsasən hərbi bazalara endirilib.

Yəməndə hərbi əməliyyatlar aparan ərəb ölkələrinin koalisiya komandanlığı bu ölkədə beşgünlük atəşkəsin bazar günündən başladığını elan edib. Barışıq şənbə günü yerli vaxtla saat 23.59-da əldə olunub.

### Əfqanıstanda 125 hərbiçi "Taliban" tərəfə keçib



Əfqanıstanın şimal-şərq əyaləti Bədəxşanda 125 hərbçi "Taliban" radikal hərəkatının tərəfinə keçib. Bu barədə "Sinxua" agentliyi məlumat yayıb.

Güc strukturları Bədəxşan vilayətinin ərazisində üç gün ərzində yaraqlılarla döyüşlər aparıblar. Lakin onlar sonradan silahlarını yerə qoyaraq "Taliban" tərəfə keçiblər.

### Türkiyə antiterror əməliyyatlarını davam etdirir



Türkiyə hökuməti antiterror əməliyyatlarını davam etdirir. Bu əməliyyatlar çərçivəsində Türkiyə Silahlı Qüvvələrinin qırıcıları terrorçuların yerləşdikləri düşərgələrə sarsıdıcı zərbələr endirir.

Terrorçuların Diyarbəkirdə hərbi maşını partlatması nəticəsində iki əsgər şəhid olub. Bundan başqa, Qarsın Sarıqamış rayonunda inşaat obyektinə məxsus 3 avtomobil yandırılıb. İzmirdə isə AKP-nin bölgə bürosu qarşısında partlayış törədilib. Bu şəhərdə bir bələdiyyə avtobusu yandırılıb, digərinin isə şüşələri sındırılıb. İstanbulun Okmeydanı ərazisində terrorçuların polisə hücumu nəticəsində üçü polis olmaqla dörd nəfər yaralanıb.

Ən son məlumata görə, ölkənin 25 bölgəsində həyata keçirilmiş antiterror əməliyyatları nəticəsində 371 nəfər şübhəli qismində həbs edilib. Terrorçulardan külli miqdarda silah və sursat, partlayıcılar, cinayət məqsədilə istifadə olunan digər vasitələr ələ keçirilib.

### Milyondan artıq smartfon təhlükəli virusa yoluxub



Android platformalı milyondan artıq smartfona düşən virus müəyyən olunub.

Bu təhlükəli virusu "Doctor Web" şirkətinin ekspertləri Google Play internet mağazasında aşkar ediblər. Zərərli proqram KKBrowser adı altında yayılıb. Həmin internet mənbədən bu virus 1,5 milyon dəfə yüklənib.

Virus mobil cihaza düşdükdən sonra xakerlərin göstərişi ilə istənilən proqramı yükləyə bilər. Bundan əlavə, bu virus telefondakı proqramları pozmaq imkanına malikdir. Virus, həmçinin istifadəçini aldadıcı linklər vasitəsilə istənilən sayta yönəldir. Zərərli proqram təminatı xakerlərə telefonun modeli, İMEİ kodu və digər məlumatları göndərir.

### Kaliningradda 10 milyardlıq xəzinə tapılıb



Rusiyanın Kaliningrad vilayətində 1-ci Dünya müharibəsi dövründən qalmış milyardlarla Almaniya markası olan xəzinə aşkar edilib.

Könüllülər qrupu tərəfindən əvvəlcə metal yeşik tapılıb və sonradan müəyyən olunub ki, içindəki 10 milyardlıq marka əskinaslar Veymar Respublikası dövrünə aiddir. Qutuda kağız əskinaslarla yanaşı, metal 50 "pfenniq" qəpiklər, əlyazma məktublar, o cümlədən Almaniya və Şərqi Prussiyanın vətənpərvərlik qəzetləri də olub.

Xatırladaq ki, Veymar Demokratik-Burjua Respublikası 1918-ci ildə noyabr inqilabı nəticəsində qurulub və respublika 1919-cu ildən 1933-cü ilədək mövcud olub. Kaliningrad vilayəti isə Rusiyada yeganə yerdir ki, tarixi Şərqi Prussiya ərazisində yerləşir və 1-ci dünya savaşı zamanı burada minlərlə hərbiçi dəfn edilib.

### Çində quraqlıq səbəbindən 250 min insan içməli su problemi ilə üzləşib



Çində quraqlıq səbəbindən içməli su problemi yaşanır.

Ölkənin şimal-şərqindəki Liaoninq əyalətində son bir aydır havaların həddindən artıq isti keçməsi quraqlığa daha çox təsir göstərir. Əyalət 1951-ci ildən indiyədək ən quraqlıq dövrünü keçirir. Bu səbəbdən 250 min insanın içməli su problemi ilə üzləşdiyi, bölgədəki 395 çayın, eləcə də 63 su ehtiyatının quruduğu bildirilir.

İnsanların həddindən artıq istilərdən əziyyət çəkdikləri bölgədə yerli hakimiyyət quraqlıqla mübarizə üçün 135 milyon yuen (təxminən 21,7 milyon dollar) ayırıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Qabaqcıl təcrübə*

# Bacarıqlı sürücü

***Zabit Eldəniz Daşdəmirovla birlikdə hərbi hissənin ərazisini gəzib son günlər aparılan abadlıq və quruculuq işləri ilə yaxından tanış olduq. Söhbət zamanı məlum oldu ki, qabaqcıl təcrübənin öyrənilməsi üçün hərbi hissədə vaxtaşırı müxtəlif bilik yarışları keçirilir. Hazırlığı və peşəkarlığı yüksək olanlar bu yarışda fəal iştirak edir, qalib gəlirlər. Bu yaxınlarda "Ən yaxşı sürücü" yarışı keçirildi. Yarışda bütün sürücü əsgərlər iştirak edirdilər. Hər kəs bacarığı, peşəkarlığı hesabına qalib gəlməyə çalışırdı. Nəhayət, gərgin keçən yarış başa çatdı. Nəticələr elan olunanda məlum oldu ki, yarışın qalibi əsgər Ceyhun Səfərovdur. İndi əsgərlər onun qabaqcıl təcrübəsini öyrənirlər.***



"Ən yaxşı sürücü" yarışının qalibi əsgər Ceyhun Cəfərovla iş başında görüşdük. Əsgər Ceyhun Cəfərov mayor Hafiz Qurbanovun tapşırıqlarını yerinə yetirərək idarə etdiyi avtomobilə texniki xidmət göstərirdi.

- Hələ kiçik yaşlarımdan sürücü peşəsinə böyük marağım var idi, - deyə əsgər Ceyhun Cəfərov söhbətə başladı. - Orta təhsilimi başa vurduqdan sonra bu arzumu reallaşdırdım. Sürücülük kursuna yazıldım. Həm nəzəri, həm də praktik dərslərdə fəal iştirak etdim. İmtahanlardan uğurla keçib sürücü vəsiqəsi aldım. Həmin gün sevincimin həddi-hüdudu yox idi. Hərbi xidmətə çağırılandan sonra hərbi texnikanı idarə etdim. Kursda aldığım təhsil, qazandığım təcrübə burada köməyimə gəlir. Avtomobili həmişə saz vəziyyətdə saxlamağa çalışıram. Çünki hər an "Çıxışa" komandası verilə bilər. Gündən-günə təcrübəm artır. Bilmədiklərimi də təcrübəli zabitlərdən öyrənib biliklərimi, peşəkarlığımı daha da təkmilləşdirirəm. "Ən yaxşı sürücü" yarışına da böyük həvəslə qatıldım, qalib gəldim. Harada, hansı sahədə olursa-olsun peşəkarlıq öz sözünü deyir.

Əsgər Ceyhun Cəfərov söhbətinə davam edərək bildirdi ki, xidmətinin sonuna qədər hərbi anda sadiq qalacaq, əsgər kimi üzərinə düşən bütün tapşırıqları peşəkarlıqla yerinə yetirəcək. Qazandığı qabaqcıl təcrübəni xidmətdə ilk addımlarını atan əsgərlərə də öyrədəcək.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**



# Vətənə sədaqət ruhunda

***Səhər tezdən "N" hərbi hissəsində dərslər başlayıb. Döyüşçülərin məşğul olduğu sinif otaqlarında tədris üçün hər bir şərait yaradıldığının şahidi oluruq.***

İdeoloji kabinetdə qrup rəhbərləri yüksək səviyyədə hazırlanaraq asılmış plakat və stendlərdən əyani vəsait kimi istifadə edirlər. Divarlarda Azərbaycan Respublikasının dövlət simvolları və onlar haqqında məlumatlar asılıb.

Dərsə başlamazdan öncə mayor Sədrəddin Haqverdiyevlə söhbət edirik. Artıq 20 ildir ki, ordu sıralarında xidmət edən zabitin hər bir sözündən Vətənə sevgi, düşmənə nifrət hiss olunurdu. Söhbətimiz zamanı öyrənirik ki, o, şəxsi heyətin təlim və tərbiyəsi ilə məşğul olan məsul şəxslərdəndir. Təcrübəli zabit təlimlərin keçirilməsindən ağızdolusu danışır. Belə təlimlərin şəxsi heyətdə ruh yüksəkliyi yaratdığını bildirir. Onun sözlərinə görə bu qüvvə ilə işğal olunmuş torpaqları qaytarmaq qüdrətindəyik.

Sonra mayor Haqverdiyev keçirilən ictimai-siyasi hazırlıq dərsindən və onun əhəmiyyətindən danışaraq bildirdi ki, bu gün ordu sıralarına çağırılan gənclər Vətənə sədaqət və milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə olunurlar. Ölkəmiz müharibə şəraitindədir. Buna görə də təkcə biz hərbçilər yox, həmçinin cəmiyyətimiz gənc nəslin vətənpərvər ruhda yetişməsinə çalışmalıdır. Unutmaq olmaz ki, Vətənimiz, torpaqlarımız bu gənclərə əmanət olunacaq. İşğalda olan torpaqlarımızın azad olunması onlara tapşırılacaq".

Sonra din tarixi, cəmiyyətdə dinin rolu və yeri mövzusunda məşğələ başlayır. S.Haqverdiyev əsgərləri salamlayır. Azərbaycanda islami dəyərlərin bərpası və dini bayramlarla bağlı zabit döyüşçülərə lazımi məlumatlar verir. Dərsdə iştirak edən 20 nəfər şəxsi heyət diqqətlə qulaq asır və qeydlər aparır. Suallar yarandıqda isə intizamlı şəkildə cavab almaq üçün müraciət edirlər.

Dərsin yekununda zabit üzünü əsgərlərimizə tutaraq bildirdi ki, Azərbaycan dövlətinin müstəqilliyini, ərazi bütövlüyünü və onun xalqının azadlığını qoruyan güclü ordumuz var. Torpaqlarımızı işğaldan azad etmək bizim borcumuzdur. Unutmayın...

**Leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

# Şəhid övladına mənzil verildi



***Azərbaycan sovet imperiyasının buxovlarını qırıb tarixi müstəqilliyə qovuşdu. O zaman ərazilərimiz də bədnam qonşumuz olan ermənilərin işğalına məruz qalırdı. Yeni yaranmaqda olan ordumuz pərakəndə idi və düşmənə qarşı döyüşə-döyüşə formalaşırdı. Belə bir vaxtda sovet ordusunda xidmət edən, Vətənini canından, qanından artıq sevən qeyrətli oğullarımız Milli Ordumuzun sıralarında xidmət etməkdən qürur duyurdular. Onlardan biri də baş leytenant Vaqif Qurbanov idi. Vaqif ixtisasca təyyarəçi olduğundan Hərbi Hava Qüvvələrində xidmətə başladı. İlk gündən bacarıqlı pilot olduğunu əməli fəaliyyəti ilə təsdiq etdi.***

Aradan on illər keçəndən sonra bir yerdə xidmət edən silahdaşları onu belə xatırlayır: - Biz günbəgün genişlənməkdə olan Qarabağ müharibəsinin astanasında idik. Belə bir vaxtda hər kəs ordumuzun güclənməsi üçün əlindən gələni edirdi. Baş leytenant Vaqif Qurbanovun Yevlax şəhərinə gətirdiyi döyüş təyyarəsi ilə mayın 8-də Şuşanın işğalı günündən sonra biz həmin təyyarə ilə döyüş uçuşlarını həyata keçirməyə başladıq, - deyə polkovnik Fuad Məmmədov xatırladı. - Təyyarənin mexaniki baş gizir Akif Quliyev idi. Onun razılığı olmadan təyyarə uçuş edə bilməzdi. Çünki təyyarənin texniki sazlığına o cavabdeh idi. Həmin il iyunun 13-də Qarabağ səmasında döyüş uçuşları aparan zaman Şelli kəndi yaxınlığında təyyarə ermənilər tərəfindən vuruldu...

Vaqif Qurbanovun Qarabağın azadlığı uğrunda gedən döyüşlərdə həlak olması barədə ailəsinə ölüm kağızı verildi.

Bu il iyulun 25-də "Meridian" şadlıq sarayında baş leytenant Vaqif Qurbanovun yeganə yadigarı Sevincin toyu oldu. Atası şəhid olanda Sevinc dörd ay idi ki, bu işıqlı dünyaya göz açmışdı. Ata nəvazişi, ata qayğısı görməsə də, anası Nəzakət xanım onu atasına layiq övlad kimi böyütdü. Sevinc boya-başa çatıb Bakı Dövlət Universitetini bitirdi.

Onun toy mərasimində doğmaları, yaxınları ilə yanaşı, atasının silahdaşları polkovnik-leytenant Gülbudaq Binyətov, mayor Bəşir Əliyev, baş gizir Akif Quliyev və başqaları ailə üzvləri ilə iştirak edirdilər. Ailə quran gəncləri Müdafiə Nazirliyinin Hərbi Hava Qüvvələri komandanının adından polkovnik Elşad Pənahov təbrik etdi, onlara xoşbəxt firavan həyat arzuladı.



Polkovnik E.Pənahov bildirdi ki, Vətən qarşısında xidmətləri olan hər kəs ölkə başçısı cənab İlham Əliyev tərəfindən layiqincə qiymətləndirilir. Bu ənənənin davamıdır ki, bu gün Müdafiə naziri general-polkovnik Zakir Həsənov da Vətən qarşısında xidməti olanları heç vaxt unutmur. O, ailə quran şəhid övladına dövlətimiz tərəfindən Səbail rayonunda 3 otaqlı mənzilin verildiyini bildirdi.

Toy mərasimində mənzilin açarlarını və gül dəstəsini Sevinc xanıma atasının silahdaşlarının övladları təqdim etdilər.

Polkovnik E.Pənahov əlavə etdi ki, Sevinc xanım atasının yolunu davam etdirmək qərarındadır. Bu yaxınlarda o zabit hazırlığı kursunu bitirib, leytenant hərbi rütbəsində Müdafiə Nazirliyi sistemində hərbi xidmətə başlayacaq. Nazirliyin rəsmi nümayəndəsi sonda Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından ailə quran gəncləri təbrik etdi və onlara gələcək həyatda uğurlar arzuladı.

Sonra Nəzakət Qurbanova ailəsinə göstərilən yüksək diqqət və qayğıya görə, ölkə başçısına, ordu rəhbərliyinə dərin minnətdarlığını bildirdi.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## Tibb xidməti

# Hərbi həkimlərin səhra peşəkarlığı

***Təlimlər zamanı tibb işçiləri üzərinə düşən vəzifələri yüksək peşəkarlıqla yerinə yetirirlər. Bu günlərdə "N" hərbi hissəsində keçirilən irimiqyaslı təlimdə bunun bir daha şahidi olduq.***

"Həyəcan" siqnalı səhər ertədən verilmişdi. Çıxışdan sonra bölmələr tapşırığa uyğun olaraq səhrada yerləşmişdi. Polkovnik Valeh Rəcəbovla birlikdə ərazini gəzir, tapşırıqların necə icra olunduğuna baxırdıq. Bütün bölmələr təlimin tələblərinə uyğun olaraq yerləşmişdi. Zirehli texnikalar xüsusi olaraq qazılmış terlərdə yerləşdirilmiş və maskalanmışdı.

Tibb işçiləri də qısa müddət ərzində tapşırıqları yüksək bacarıqla yerinə yetirmişdilər. Çadırlar qurulmuş, çarpayılar düzülmüş, xəstələri qəbul etmək üçün müvafiq şərait yaradılmışdı. Əlahiddə tibb taborunun həkim və tibb bacıları bütün lazımi işləri görmüşdülər.

Tibb taborunun komandiri mayor Niyaməddin Ağamalıyev bildirdi ki, "Həyəcan" siqnalı verilən kimi taborun şəxsi heyəti təlimin qaydalarına uyğun olaraq qarşıya qoyulan vəzifələri icra etməyə başladı. Bu sahədə kifayət qədər təcrübəmiz olduğuna görə tələb olunan müvafiq işlər qısa müddət ərzində görüldü. Artıq əlahiddə tibb taborunun şəxsi heyəti səhra şəraitində yaralı və xəstələri qəbul etməyə hazırdır.



Daha sonra həkim-mütəxəssislərdən İbrahim İsgəndərov, Elsevər Həsənov, Şükür Abdullayev, Asim Səfərov, Xalid Musayev, Şahin Süleymanov, tibb bacıları Kəmalə Əzizova, Sevinc Abdullayeva və başqaları ilə də görüşüb söhbət etdik.

Burada olduğumuz vaxt xəbər verdilər ki, əlahiddə tibb taboruna müraciət edən xəstə var. Həkimlər vaxt itirmədən onu müayinə etməyə başladılar.

Tibb məntəqəsinin hər tərəfində səliqə-sahman hökm sürürdü. Hiss olunurdu ki, əlahiddə tibb taborunun şəxsi heyəti vəzifə borclarını yaxşı bilir və onların öhdəsindən bacarıqla gəlirlər. Təbiidir ki, hərbi həkimlər peşəkardırsa, xəstələr tez sağalacaq...

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

## Yeni kitablar

# “Qoşunlarda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının əsasları”

Əlahiddə Ümumqoşun Ordusunun mənəvi-psixoloji təminat şöbəsi tərəfindən birləşmə, hissə və bölmələrdə şəxsi heyət arasında hərbi xidmətə marağın artırılması, döyüş və mənəvi-psixoloji hazırlığını yüksəldilməsi, səmimi yoldaşlıq hisslərinin gücləndirilməsi və hərbi intizamın möhkəmləndirilməsi məqsədi ilə əməli tədbirlər görülür. Bu yaxınlarda polkovnik Mirqiyas Rüstəmovun rəhbərliyi ilə "Qoşunlarda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının əsasları" kitabı çap olunaraq bütün birləşmə, hissə və bölmələrə göndərilib.




Ümummilli lider Heydər Əliyevin dahiyanə "Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır" fikirləri ilə başlayan kitab birlik, birləşmə, hərbi hissə, bölmə və hərbi tədris müəssisələrində şəxsi heyətin mənəvi-psixoloji hazırlığının planlaşdırılması, təşkili və aparılmasında komandirlərə (rəislərə), komandirlərin şəxsi heyətlə iş üzrə müavinlərinə, mənəvi-psixoloji təminat şöbə (bölmə) rəislərinə kömək məqsədi ilə hazırlanıb. "Qoşunlarda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının əsasları" kitabı AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin 11 mart 2015-ci il tarixli qərarı ilə çapa tövsiyə edilib. "Əcəmi" nəşriyyat-poliqrafiya birliyində çap olunan 320 səhifəlik bu kitab giriş hissədən və 3 fəsildən ibarətdir. Giriş hissəsində ümummilli lider Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun, Azərbaycan Respublikasının Müdafiə nazir general-polkovnik Zakir Həsənovun şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyəsi haqqındakı fikirlərinə və Hərbi Anda yer verilib. 1-ci fəsildə Azərbaycan Konstitusiyasının əsasları, 2-ci fəsildə mənəvi-psixoloji hazırlığın əsasları, 3-cü fəsildə isə rəhbər sənədlər öz əksini tapıb.

**Nəriman NƏCƏFOV,**
**"Azərbaycan Ordusu"**

# “Həyəcan siqnalı” layihəsi davam edir

***Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun və "İrəli" İctimai Birliyinin dəstəyi ilə həyata keçirilən "Həyəcan siqnalı" layihəsi davam edir.***

AZƏRTAC xəbər verir ki, layihənin ikinci günündə iştirakçılara "Müharibə jurnalistikasının qaydaları", "Hərbi sahədə informasiya əldə etmək mədəniyyətinin inkişafı" haqqında məlumat verilib, Dağlıq Qarabağ və hərbi informasiyanın düzgün verilməsi ilə bağlı müzakirələr aparılıb.

Layihənin üçüncü günündə isə "Hərbi informasiya nədir", "Hərbi jurnalistikanın Azərbaycanda tarixi" və s. kimi mövzularda təlimlər keçirilib.

Təlimlərin sonunda jurnalistlər üçün "Həyəcan günü" elan olunub. Müəyyən edilən müddətdə jurnalistlər onlara verilən hərbi informasiyaya qarşı münasibətlərini yazılı formada bildirərək verilən tapşırığı yerinə yetiriblər.

## Xarici ölkə ordularında

# Psixoloji müharibədə video oyunların rolu

***Tədricən informasiya texnologiyası və internet şəbəkəsinin inkişafı ilə videooyunlardan əyləncə kimi kütləvi şəkildə istifadə edilməyə başlandı. Dünya bazarında bu oyunlar ildə 11 milyard dollar qiymətində dəyərləndirilir. Onun pərəstişkarları getdikcə artmaqdadır. ABŞ ştatlarından birinə məxsus universitetin məlumatına görə, on nəfər yeniyetmədən doqquzu videooyunlar oynayır. Onların çoxunu "kompüter fanatları" adlandırırlar.***

Bu gün alimlər informasiyaların ötürülməsi üzrə təkmilləşdirilmiş kompüter proqramları hazırlayırlar. Bu proqramlar məqsədyönlü şəkildə insana psixoloji təsir göstərir. Oyunlar zamanı müxtəlif stereoskopik displey dəbilqəsi və videofon, xüsusi əlcəklər, geyimlər oyunçuya nəinki üçqat ərazini görmək, müxtəlif stereosəsləri (təyyarə səsləri, atəş səsləri, güllələrin hədəfə dəymə və hansısa əşyaya toxunmanı və s. səsləri) eşitməyə imkan verir. Hazırda oyun istehsalçıları tərəfindən qoxunu hissetmə texnologiyası üzərində də işlər aparılır.

Videooyunlar effektli təsiretmə gücünə malik olduğuna görə informasiya və psixoloji mübarizədə öz yerini tapıb. Bu gün kompüter oyunları dövlət ideologiyasının təbliğində, vətəndaşların milli ruhunun formalaşdırılmasında, əsas əhəmiyyət kəsb edir. Dünyada oyun sənayesi üzrə qabaqcıl yerlərdən birini ABŞ tutur. Bu ölkə antiterror mövzusu üzrə kompüter oyunlarını yayır. Bununla planet əhalisinin ruhuna beynəlxalq terrorizmə qarşı mübarizə ideyasını yeridir. Bu ölkədə əksər video oyunların əsas ideyası dünyanı beynəlxalq terrorizmdən xilas etməkdir. Bu oyunlardan biri "Apaç"dır ki, burada iki Amerika pilotunun antiterrora qarşı əməliyyatı göstərilir. Bu oyunlar vasitəsilə qorxmaz, güclü, ağıllı döyüşçünün düşmənə qarşı möhkəm dayanan, ölkəsinin milli maraqları naminə həyatını qurban verməyə hazır olan qəhrəmanın siması canlanır. Göründüyü kimi, beynəlxalq terrorizm dünyaya əsas təhlükədir və bu təhlükə ilə mübarizə aparmaq üçün bütün vasitələrdən istifadə edilməsi qeyd edilir.

ABŞ-da psixoloji müharibənin aparılmasına cavabdeh olan orqanlar videooyunların köməyi ilə gələcək əsgərin obrazını formalaşdırmağa can atır. Bunlar yüksək texnologiya əsasında hazırlanmış "XXI əsrin müharibələri" və "Amerikasayağı müharibəyə" aiddir. Hər bir müharibədə mütləq düşmən obrazının modeli olmalıdır. Videooyunlar oyunçuların şüurunda düşmən obrazını möhkəmləndirir. "XXI əsrin müharibələri" videooyununda düşmən kimi terrorçular elan edilib.

Müasir videooyunlar güc strukturları əməkdaşlarına düşmənin psixologiyasını dərindən öyrənməyə kömək edir. Onu da qeyd etmək lazımdır ki, NATO-ya üzv ölkələrdə vüdeooyunlardan hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığının möhkəmləndirilməsində əyani vəsait kimi geniş istifadə edilir. Bundan başqa oyunlar vasitəsilə xüsusi döyüşçü bölmələrinin hazırlanması üzrə dərslər keçirilir. Bu gün kompüter stimulyatorlarından Amerikanın Silahlı Qüvvələrində atıcıların, sürücülərin, təyyarəçilərin, tankçıların hazırlığında geniş istifadə edilir. "Amerika ordusu" adlı kompüter oyununda isə hərbi qulluqçulara ordu sıralarında necə xidmət etmək, silahlardan istifadə, hərbi əməliyyatların aparılması, əhalinin təhlükəsizliyi, döyüşün əsas qaydaları və s. nümayiş etdiriləcək.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## XXI dünya çempionatının seçmə mərhələsində Azərbaycan millisinin rəqibləri məlum olub




2018-ci ildə Rusiyanın ev sahibliyi edəcəyi futbol üzrə XXI dünya çempionatının seçmə mərhələsinin püşkatma mərasimi keçirilib.

Püşkatmaya görə millimiz dünya çempionatının seçmə mərhələsində "C" qrupunda mübarizə aparacaq. Azərbaycan yığma komandası bu qrupda Almaniya, Çexiya, Şimali İrlandiya, Norveç və San-Marino yığmaları ilə görüşəcək.

Püşkatmanın nəticələrinə görə Avropanı təmsil edən 52 yığma 9 qrupa bölünüb. Bunların yeddisində altı, ikisində isə beş komanda yer alıb. Qrupların qalibləri dünya çempionatının final mərhələsinə birbaşa iştirak edəcək. İkinci yeri tutan dörd cütlük isə pley-off mərhələsində oynayacaq.

## Azərbaycanlı yüngül atlet Avropa çempionu oldu




Azərbaycanlı yüngül atlet Nazim Babayev İsveçin Eskilstuna şəhərində keçirilən gənclər arasında Avropa çempionatının qalibi olub.

İdmançımız uzunluğa tullanma yarışlarının finalında 17,04 metr nəticə göstərərək qızıl medal qazanmaqla yanaşı, həm də rekorda imza atıb.

Qeyd edək ki, yarışda ikinci yeri italiyalı Tobia Boççi (16,51), 3-cü yeri isə ukraynalı Pavlo Beznits (16,10) tutub.

## Stadnik qızıl, Netreba bürünc medal qazandı



Polşanın paytaxtı Varşava şəhərində qadın güləşi üzrə "Poland Open" turniri keçirilib. Azerisport.az xəbər verir ki, 48 kiloqram çəki dərəcəsində mübarizə aparan Mariya Stadnik bütün rəqiblərinə təmiz qələbə ilə qalib gələrək qızıl medal qazanıb.

60 kiloqramda İrina Netreba ilk görüşdə məğlub olsa da, rəqibin finala çıxması ilə təsəlliverici görüşlərə qatılmaq şansı əldə edib. Bu şansdan istifadə edən güləşçimiz bütün görüşləri qalib gələrək, bürünc medal qazanıb.

## Qarışıq döyüş növlərində çıxış edən Bəxtiyar Abbasov növbəti qələbəsini qazanıb



Azərbaycanın və "Qəbələ" idman klubunun təmsilçisi, qarışıq döyüş növlərində (MMA) çıxış edən Bəxtiyar Abbasov növbəti qələbəsini qazanıb.

Həmyerlimiz Rusiyanın Krasnodar şəhərində təşkil olunan "Tech-Krep FC-PRIME Selection" adlı döyüş gecəsində fərqlənib. Yarışda 84 kiloqram çəki dərəcəsində qüvvəsini sınayan B.Abbasov ukraynalı Artyom Şokalo ilə görüşdə qalib gəlib.

O, "PROFC-GPG"un qalibi, pankration, sambo, döyüş sambosu, ciu-citsu, əlbəyaxa döyüş üzrə dünya çempionudur. Döyüş sambosunda Avropa çempionu olan idmançımız sambo üzrə dünya kubokunun qalibi, sambo və cüdo üzrə Azərbaycan çempionu, həmçinin cüdoda beynəlxalq dərəcəli idman ustasıdır.

## Futbol üzrə milli komandamızın qapıçısının yeni klubu müəyyənləşib



Futbol üzrə milli komandamızın qapıçısı Kamran Ağayevin yeni klubu müəyyənləşib.

29 yaşlı qolkiper Türkiyə birinci divizionunda çıxış edən "Karşıyaka"ya transfer olunub. Komanda K.Ağayev ilə bir illik müqavilə imzalayıb.

K.Ağayev ötən mövsüm "Kayserispor"da çıxış edib.

**AZƏRTAC-ın materialları əsasında**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 594
Nüsxə 4700